Azərbaycan Respublikasının
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Milli
Kitabxanası



# NURLU ÖMRÜN SALNAMƏSİ
# ZƏRİFƏ ƏLİYEVA – 95

## Metodik vəsait

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# Nurlu ömrün salnaməsi
# Zərifə Əliyeva – 95

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait*

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 120944

BAKI – 2018

**Tərtibçi:** **S.Quliyeva**

**Elmi redaktor:** **K.M.Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **L. Əhmədova**

**Nurlu ömrün salnaməsi - Zərifə Əliyeva 95** /M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; tərt. ed. S.Quliyeva; elmi red. K.Tahirov; red. L.Əhmədova.- Bakı, 2018.- 33 s.

**© Azərbaycan Milli Kitabxanası, 2018**

***Həkim insanlardan özünü ayırmamalı, özünü sevən, laqeyd insan olmamalıdır.***

**Zərifə xanım Əliyeva,**
***akademik***

## Tərtibçidən

Bu il Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan yüksək intellekt sahibi, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor, gözəl insan, fədakar ana Zərifə xanım Əziz qızı Əliyevanın 95 yaşı tamam olur. Onun elmi tədqiqatları, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı pedaqoji fəaliyyəti, peşəkar elmi kadrların yetişdirilməsindəki xidmətləri danılmazdır.

Azərbaycanda oftalmologiya sahəsində ilk akademik olmuş Zərifə xanım Əliyeva ictimai işlərdə də fəaliyyət göstərmiş, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan "Bilik" Cəmiyyətinin və Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuşdur.

Təqdim olunan vəsaitdə Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti, kitabxanalarda görkəmli oftalmoloqun zəngin elmi irsinin təbliği məqsədilə metodik tövsiyələr, görkəmli şəxsiyyətlərin akademik haqqında söylədikləri fikirlər, xatirəsinin əbədiləşdirilməsinə dair məlumatlar yer almışdır.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya göndərən şəxslərə əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı ş., Xaqani küç. 57
**E-mail:** metodik@anl.az



## Akademik Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında

Azərbaycan Respublikasının Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində görkəmli dövlət və ictimai-siyasi xadim, elm fədaisi, böyük şəxsiyyət Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində anadan olmuşdur. O, 1942-ci ildə orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə institutu əla qiymətlərlə başa vurmuşdur.

İki il Moskva şəhərində Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ixtisaslaşma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnmiş, Vətənə qayıdaraq 1949-cu ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda həkim-ordinator, elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1950-1953-cü illərdə Zərifə Əliyeva həmin institutda aspiranturada təhsilini davam etdirmişdir. O illərdə Azərbaycanda gözün iltihabı və buynuz qişasını zədələyən, ağır nəticələrə, hətta tam korluğa səbəb olan xlamidiya etiologiyalı infeksion traxoma xəstəliyi geniş yayılmışdı. Doğma xalqının sağlamlığı uğrunda mübarizəyə atılmış gənc həkim Zərifə Əliyeva bu xəstəliyin müalicə və profilaktik tədbirlərinin təşkilində fəal iştirak etmiş, dəfələrlə Azərbaycanda traxoma xəstəliyi ən çox yayılmış rayonlara getmiş, praktik oftalmoloq-həkimlərə məruzələr oxumuş, göz xəstəlikləri olan xəstələri müayinə və müalicə etmişdir.

Zərifə Əliyeva 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilmiş-

dir. Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır. Görkəmli alim vərəm, şəkərli diabet və qlaukoma kimi xəstəliklər nəticəsində gözün zədələnmə xüsusiyyətlərinin öyrənilməsi kimi ağrılı problemləri də tədqiq etmişdir.

1963-cü ildə Zərifə Əliyeva "Oftalmologiya" ixtisası üzrə böyük elmi işçi, 1967-ci ildə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının dosenti olmuş, 1969-cu ildə görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır.

1976-cı ildə Zərifə Əliyeva gözün peşə xəstəlikləri problemini tədqiq edərək "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi almış, 1977-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının professoru vəzifəsinə seçilmişdir. 1977-ci ildə professor Zərifə Əliyevanın təklifi və təşəbbüsü ilə Bakıda ilk dəfə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmiş və Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması barədə təklifi irəli sürülmüşdür.

1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü və təşkilatçılığı ilə yaradılan bu laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə qiymətli tədqiqatlar aparılmışdır. Elmi araşdırmalar nəticəsində Zərifə xanım Əliyeva "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirmiş, bu əsərlər dünyanın elmi ictimaiyyətinin etimadını qazanmışdır.

1981-ci ildə oftalmologiyanın inkişafında yüksək xidmətlərinə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi



tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın-alimdir.

Zərifə xanımın tədqiq etdiyi görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivləri" adlı dərs vəsaitləri məhz bu məsələlərə həsr olunmuşdur.

Həmin dövrdə Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş maraqlı tədqiqatlar aparmışdır. Gərgin və gərəkli tədqiqatlar nəticəsində o, bir sıra elmi məqalələr və iki monoqrafiya – "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirmişdir.

Zərifə Əliyeva göz travmatizminin profilaktikası və onunla mübarizə imkanlarını da tədqiq etmişdir. Bir sıra əsərlərində göz travmasının ağır nəticələrinin cərrahi üsullarla müalicəsinə mövcud metodik yanaşmaları təhlil etmiş, bir sıra elmi tədqiqatlar aparmış, müalicə üsulları işləmişdir ki, bu da gözün və onun köməkçi aparatının travmatik zədələrinin müalicəsinin yaxın və uzaq nəticələrini yaxşılaşdırmağa imkan vermişdir. Göz xəstəlikləri klinikasında fizioterapevtik üsullardan istifadənin perspektivləri də onun diqqətindən kənarda qalmamışdır.

Zərifə xanım Əliyeva xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, həkimlərin iş təcrübəsində əvəzolunmaz elmi vəsait hesab edilən "İridodiaqnostikanın əsas-

ları", "Terapevtik oftalmologiya" adlı əsərlərin həmmüəlliflərindən biridir.

Zərifə Əliyeva gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmiş, çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdur. Onun "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Zərifə Əliyeva səhiyyədə kadr hazırlığı və həkimlərin ixtisasının təkmilləşdirilməsi sahəsində də səmərəli fəaliyyət göstərmiş, onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir.

Görkəmli alim 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Akademik Zərifə Əliyeva həmişə ictimai fəaliyyətlə məşğul olmuş, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. Eyni zamanda "Oftalmologiya xəbərləri" ("Вестник офтальмологии") jurnalının redaksiya heyətinin üzvü idi.

Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat etmiş, 1994-cü ildə cənazəsi Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn edilmişdir.

Bu böyük alim vətən və xalq qarşısında göstərdiyi misilsiz xidmətlərə, çoxillik elmi-tədqiqat işlərinə görə orden və medallarla təltif olunmuş, bir sıra müəssisələrə, məktəblərə, küçələrə, parklara adı verilmiş, Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.



## Zərifə Əliyevanın 95 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlər

Respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı elmi tədqiqatları ilə böyük şöhrət qazanmış görkəmli akademik Zərifə xanım Əliyevanın geniş elmi-pedaqoji və ictimai fəaliyyəti ilə bağlı məlumatları oxuculara çatdırmaq kitabxanaçıların qarşısında duran mühüm vəzifələrdən biridir. Bunun üçün ilk növbədə kitabxanaçılara tədbirlər planı hazırlamaq və bu plandan irəli gələn bir sıra tədbirlərin həyata keçirilməsi tövsiyə olunur.

- Elektron məlumat bazası və virtual kitab sərgisinin hazırlanması;
- Telekonfrans və virtual dəyirmi masaların keçirilməsi;
- **"Nurlu ağac", "Sağlamlıq həftəsi", "İnformasiya günü"** və digər layihələrin təşkili;
- Müsabiqələrin keçirilməsi;
- Daycestin hazırlanması.

**Elektron məlumat bazası** – Görkəmli akademik Zərifə Əliyevanın 95 illik yubileyi münasibətilə həyatını və elmi fəaliyyətini əks etdirən, kitabxananın fondunda olan ədəbiyyata uyğun elektron məlumat bazası yaratmaq olar.

**Nümunə:**

**"Zərifə Əliyeva 95"**

***Elektron məlumat bazası***

- ➢ Rəsmi sənədlər
- ➢ Bioqrafiyası
- ➢ Həyat və fəaliyyətinin əsas tarixləri
- ➢ Görkəmli şəxslər Zərifə Əliyeva haqqında
- ➢ Əsərləri:
- • Kitabları

- Monoqrafiyaları
- Məqalələri

➢ Haqqında:

- Kitablar
- Məqalələr
- Dissertasiya və avtoreferatlar

➢ Xatirəsinin əbədiləşdirilməsi

➢ Fotoqalereya

➢ Videoqalereya

Bazanı hazırlayan zaman kitabxanaçılar Milli Kitabxananın hazırladığı ***"Zərifə xanım Əliyeva"*** adlı elektron məlumat bazasını nümunə götürə bilərlər. Bazada görkəmli oftalmoloq-alim Zərifə xanımın həyat və fəaliyyəti, görkəmli şəxslər Zərifə Əliyeva haqqında, xatirəsinin əbədiləşdirilməsi və s. əsas bölmələr, həmçinin Zərifə xanımın özünün əsərləri və ona həsr olunmuş kitab, jurnal və qəzet məqalələrinin elektron versiyaları yerləşdirilmişdir.

Kitabxanaçılar və geniş oxucu kütləsi bu zəngin informasiya mənbəyindən yararlanmaq üçün Milli Kitabxananın (**www.anl.az**) saytına daxil olaraq **"Elektron məlumat bazası"** bölməsini seçməlidirlər.

**Virtual kitab sərgisi** – Yubiley ili münasibətilə kitabxanaçılar ***"Gözlərə nur bəxş edən alim"***, ***"Müdrik insan, qayğıkeş ana"***, ***"Nəsillərə örnək olan ömür"***, ***"İşıqlı ömrün salnaməsi"*** və s. başlıqlarda kitabxananın fondunda olan materiallar əsasında virtual kitab sərgiləri hazırlaya bilərlər.

**Nümunə:**

**Titul slayd**: sərginin başlığı: ***"Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyeva"***

**Slayd 2: Zərifə xanım Əliyevanın əsərləri:**

***Azərbaycan dilində:***

✓ *Əliyeva, Z. Yüksək əqidə: (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı) /Zərifə Əliyeva; elmi red. M.Topçubaşov.- Bakı: Azərbaycan, 2003.- 104 s.*



***Rus dilində:***

✓ *Алиева, З.А. Анатомо-физиологическая характеристика гидродинамической системы глаза /Зарифа Алиева, Н.Б.Шульпина.- Баку: Азернешр, 1980.- 37 с.*

✓ *Алиева, З. Офтальмопатология при хронической йодовой интоксикации /Зарифа Алиева.- Баку: Азернешр, 1981.- 134 с.*

***Qəzet və jurnallarda dərc olunan məqalələri:***

✓ *Əliyeva, Z. Bakı şəhəri yod zavodu işçilərində gözün ön şöbəsinin vəziyyəti haqqında: Xülasə /Zərifə Əliyeva //Azərbaycan tibb jurnalı.- 1972.- № 4.- S.47.*

✓ *Əliyeva, Z. Bakı şəhəri şin zavodunun müxtəlif sexləri şəraitində olan sınaq heyvanlarının göz toxumlarından bəzi histokimyəvi göstəricilərin xarakteristikası: Xülasə /Zərifə Əliyeva //Azərbaycan tibb jurnalı.- 1974.- № 4.- S. 32.*

✓ *Əliyeva, Z. Fəlakətin qarşısını almaq olar: Gözün bəzi irsi xəstəlikləri haqqında /Zərifə Əliyeva //Kommunist.- 1982.- 13 iyun.*

***Haqqında yazılan kitablar (Azərbaycan və digər dillərdə)***

✓ *Mirələmov, H. Zərifə Əliyeva /Hüseynbala Mirələmov; tərc. edən və baş red. K.Əhmədqızı.- Bakı: Azərbaycan, 2013.- 206, [2] s.*

✓ *Zərifə Əliyeva: Ziyarətə çevrilmiş ünvanlar /müəl. və tərt. N.Şamilqızı.- Bakı: Elm və təhsil, 2013.- 95, [1] s.: portr., fotoşək.*

***Haqqında yazılan məqalələr (Azərbaycan və digər dillərdə)***

✓ *Allahverdiyev, M. Dünya şöhrətli oftalmoloq-alim /M.Allahverdiyev //Xalq qəzeti.-2017.- 15 aprel.- S.3.*

✓ *Əliyeva, İ. Nurlu insan: Elm xadimləri /İradə Əliyeva //Azərbaycan.- 2016.- 15 aprel.- S.7.*

✓ *Zərifə xanım Əliyevanın zəngin həyat yolu bugünkü və gələcək nəsillər üçün örnək və yaşam etalonudur //İki sahil.- 2017.- 28 aprel.- S.5.*

**Slayd 3:** Kitablarla daha yaxından tanış olmaq üçün kitabxananın ünvanı, əlaqə vasitələri (telf., faks, e-mail) qeyd edilir.

Virtual kitab sərgilərini hazırlayan zaman kitabın üz qabığı, biblioqrafik təsviri, annotasiyası və əgər varsa kitabın onlayn versiyası və ya linkini də yerləşdirmək olar.

**Telekonfranslar** – Dünya şöhrətli alimin 95 illik yubileyi münasibətilə kitabxanalarda təşkil olunacaq digər tədbirlərdən biri də telekonfransların keçirilməsidir.

Telekonfrans əsasən (telefon vasitəsilə, audiokonfrans, çat, poçt vasitəsilə konfrans, videokonfrans və s.) Windows əməliyyat sistemində Microsoft Net Meeting proqramı vasitəsilə həyata keçirilir. Bu proqram uzaq məsafədə səs və video əlaqələrinin təşkili, eləcə də internet vasitəsilə onlayn görüş və konfransların keçirilməsi üçün nəzərdə tutulmuşdur. Telekonfranslar iki növə ayrılır: audiokonfranslar (səsin ötürülməsi vasitələrindən istifadə etməklə) və videokonfranslar (video-rabitə vasitələrindən istifadə etməklə).

Telekonfransa hazırlaşarkən kitabxanaçı mövzunun müəyyən edilməsi, ünsiyyət dilinin seçilməsi, iştirakçıların dəvət olunması, müzakirələrin idarə olunması və onlara yekun vurulması kimi təºkilati işləri həyata keçirir. Telekonfransın əsas üstünlüklərindən biri də iştirakçı tərkibinə, sayına, həmçinin, telekonfransın müddətinə heç bir məhdudiyyətin qoyulmamasıdır.

Oftalmoloq-alim Zərifə xanımın 95 illik yubileyi ilə əlaqədar kitabxanalar tibb ocaqları ilə birgə ***"Zərifə Əliyeva və oftalmologiya elmi"***, ***"Ömrü dastana çevrilmiş alim – Zərifə Əliyeva"*** və s. mövzularda regionlararası, region daxilində, eyni zamanda MKS daxilində filial kitabxanalar arasında telekonfrans keçirə bilərlər. Hazırlıq müddətində kitabxanaçı konfransda iştirak edəcək şəxslərlə sıx əlaqə saxlamalı, proqram tərtib etməli, konfransda çıxış edəcək şəxsləri və onların onlayn qeydiyyatdan keçə bilmələri üçün veb ünvan müəyyən etməlidir. Sonra sosial şəbəkələrdə, kitabxananın saytında, yerli qəzetdə konfransla bağlı elan və ya anons yerləşdirilir.



**Virtual dəyirmi masa** – Görkəmli akademikin 95 illik yubileyi münasibətilə kitabxanalarda Regional Mədəniyyət və Turizm İdarələri, səhiyyə və digər təşkilatlarla birgə regionlararası və ya region daxilində bir neçə MKS arasında ***"Qaranlığa nur saçan işıq"***, ***"Kamil və müdrik ömür yolu"***, həmçinin, göz xəstəlikləri ilə bağlı - ***"Katarakta və ya Mirvari suyu"***, ***"A vitamininin çatışmaması və toyuq korluğu xəstəliyi"***, ***"Traxoma nədir?"***, ***"Göz xəstəlikləri ilə bağlı ilkin tibbi biliklər nələrdir?"*** və digər mövzular ətrafında virtual dəyirmi masaların təşkili də çox əhəmiyyətlidir. Belə tədbirlər maarifləndirmə xarakteri daşıyır.

Virtual dəyirmi masanı təşkil edən zaman müzakirə olunacaq məsələlər müəyyənləşdirilməli, iştirakçılar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalı və mövzu ilə bağlı suallar hazırlanmalıdır. Burada da telekonfransda olduğu kimi kitabxanaçı tədbirlə bağlı sosial şəbəkələrdə, kitabxananın saytında, yerli qəzetdə elan yerləşdirməli və iştirakçıların onlayn qeydiyyatdan keçmələrinə nəzarət etməlidir. Bu cür tədbirlərin video çəkilişini kitabxananın saytında, sosial şəbəkələrdə yerləşdirməklə daha çox istifadəçinin məlumatlandırılmasına imkan yaratmaq olar.

**"Nurlu ağac" layihəsi** – Kitabxanaçılar orta məktəblər, məktəbdənkənar hazırlıq qrupları, incəsənət məktəbləri, gimnaziyalar, sosial qurumlar, tibb ocaqları və digər təşkilatlarla birgə görkəmli oftalmoloqun yubileyi münasibətilə **"Nurlu ağac"** layihəsini həyata keçirə bilərlər. Simvolik məna daşıyan bu ağac kitabxananın foyesində və ya Açıq Kitabxanada hazırlana bilər. Ağacın budaqlarında şagirdlər tərəfindən yazılmış Zərifə xanım Əliyeva, onun həyat və fəaliyyəti, sağlamlıqla bağlı esselər yerləşdirilir. Ağacın müxtəlif mövzular üzrə hazırlanması daha məqsədəuyğundur. Ağacdan asılan esselər əsasən aşağıdakı mövzuları əhatə edə bilər: *"Ana qəlbi"*, *"Gözəl gözlü insan"*, *"Qaranlıqdan işığa doğru"*, *"Zərifə Əliyevanın həyatı və fəaliyyəti"*, *"Göz xəstəlikləri haqqında nə bilirik"*, *"Göz xəstəlikləri və onlardan necə qorunmalı?"*, *"Gəlin gözlərimizi qoruyaq"*, *"Gör-*

*məni yaxşılaşdıran ən sadə üsullar hansılardır?", "Gözlərimiz yorularkən nə etməliyik?", "Eynək taxmaq istəmiriksə nələrə diqqət etməliyik", "Kompüterin gözlərə ziyanı nələrdir?" və s.*

***"Nurlu ağac"***da esselərlə yanaşı mövzuya uyğun kitabların, qəzet və jurnalların tövsiyə siyahısının yerləşdirilməsi də faydalı olar. İl boyu davam edəcək layihə çərçivəsində ən yaxşı esse yazan şagird kitabxanaçılar tərəfindən mükafatlandırılır.

Dünya şöhrətli akademik, gözəl həkim Zərifə xanım Əliyevanın 95 illik yubileyi münasibətilə kitabxanaçılar regionda fəaliyyət göstərən tibb ocaqları ilə birgə **"Sağlamlıq həftəsi"** layihəsi həyata keçirə bilərlər. Sağlamlıq həftəsinin ilk tədbirinin görkəmli alimə, onun elmi-pedaqoji fəaliyyətinə həsr olunmuş kitab sərgisinin açılışı ilə başlanması daha məqsədəuyğundur. ***"Zərifə Əliyeva – gözlərə nur bəxş edən alim"*** adlı sərgidə alimin kitabxananın fondunda olan kitab və elmi məqalələri, monoqrafiyaları, həmçinin, onun haqqında dövri mətbuatda çıxan məqalələr, kitablar, xatirə yazıları, foto şəkillər və s. materiallar sərgilənə bilər. Sərgi zamanı Zərifə Əliyevaya həsr olunmuş virtual görüntülərin, video filmlərin, məlumat bazalarının nümayişi də tövsiyə olunur.

Həftənin növbəti günlərində isə kitabxanaçılar məktəb və tibb işçilərinin iştirakı ilə göz xəstəlikləri, gözlərə qulluq haqqında, göz zəifliyinin qarşısını necə almalı, gözlər üçün gimnastik hərəkətlər hansılardır, uşaqlarda ən çox rast gəlinən göz xəstəlikləri hansılardır, astiqmatizm nədir, göz xəstəliklərinin müalicəsində xalq təbabətindən istifadə və s. mövzular üzrə söhbət, treninq, mühazirə saatları, praktik təlimlər, təcrübələr, testlər, yarış-oyunlar, kinofilmlərə baxış və digər tədbirlər həyata keçirə bilərlər.

Konkret bir mövzunu əhatə edən tədbir zamanı bu sahə üzrə mütəxəssisin dəvəti və həmin mövzunu əhatə edən videoçarxın nümayişi də olduqca faydalıdır. Bundan əlavə həftə ərzində iştirakçılara mövzu üzrə bukletlərin, broşürlərin, məlumat vərəqələrinin, maarifləndirici materialların paylanması da tövsiyə olunur.

Layihə çərçivəsində kitabxananın fəal oxucuları həftənin müəyyən olunmuş günündə kitabxanaya gələ bilməyən yaşlı və fiziki qüsurlu, görmə qabiliyyətini itirmiş və zəif görən insanlara



sağlamlıqla bağlı evlərdə ***"oxu saatları"*** keçirə bilərlər. Bu zaman fiziki qüsurlu şəxslərin mütaliə maraqları da nəzərə alınmalıdır.

Layihə çərçivəsində həyata keçiriləcək digər tədbirlərdən biri də Açıq Kitabxanada görkəmli oftalmoloq-alimə, onun elmi-pedaqoji fəaliyyətinə həsr olunmuş yeni **kitabların təqdimatı**nın keçirilməsidir. Kitab təqdimatında öncə təqdim ediləcək kitab haqda, daha sonra kitabın müəllif heyəti haqqında məlumat, kitabın məzmunu, onun keyfiyyəti barədə danışılır. Texniki imkanları olan kitabxanalarda proyektorun köməyi ilə ekranda kitabın elektron variantı da nümayiş etdirilə bilər. Kitab təqdimatı keçirərkən imkan daxilində müəllifin iştirakı əhəmiyyətlidir. Sonda kitabı necə əldə etməyin mümkünlüyü, yerləşdiyi kitabxana, elektron versiyası varsa internet ünvanları, haqqında məlumat verilmiş mənbələr də oxucuların diqqətinə çatdırılmalıdır.

**İnformasiya günü** – Yubiley ilində kitabxanaçılar öz saytlarında və sosial şəbəkələrdə Zərifə xanım Əliyevanın həyatı, elmi fəaliyyəti haqda, eləcə də uşaq, yeniyetmə və gənclərin göz xəstəlikləri ilə bağlı, həmçinin, mütaliə edərkən gözlərin sağlamlığını qoruya bilmələri və bu sahədə biliklərin artırılması məqsədilə mütəmadi olaraq informasiya xarakterli məlumatları, həkimlərin bu sahədə tövsiyələrini yerləşdirməklə onlayn informasiya günü həyata keçirə bilərlər. Sosial şəbəkələrdə və saytlarda verilən faydalı məsləhətlərin əsasən ***"Yadda saxlayın!", "Bilirsinizmi?", "Unutmayın ki,"*** kimi diqqət çəkən başlıqlar altında verilməsi tövsiyə olunur.

Layihə çərçivəsində həmçinin oftalmologiya ilə bağlı kitabxananın fondunda olan kitab, qəzet və jurnal məqalələrinin (Azərbaycan və digər dillərdə) elektron mətnlərinin, eləcə də, kitabxanaya yeni daxil olan tibb elminə, o cümlədən oftalmologiyaya aid kitablar, qəzet və jurnalların biblioqrafik siyahılarının və onlar haqqında qısa annotasiyaların saytda yerləşdirilməsi də kitabxanaçılara tövsiyə olunur. Maarifləndirici və tövsiyə xarakterli belə resursların kitabxananın saytında yerləşdirilməsi kitabxanaya gəl-

mə imkanı olmayan fiziki qüsurlu oxucular üçün də olduqca faydalı olacaqdır.

**Müsabiqə** – Zərifə xanım Əliyeva haqqında materialların geniş oxucu kütləsi arasında təbliği zamanı yeniyetmə və gənclər arasında keçirilən müsabiqələrin xüsusi əhəmiyyəti vardır. Görkəmli alimin yubileyi münasibətilə kitabxanaçılar ***"Unudulmaz alim, mehriban insan, qayğıkeş ana"*** mövzusunda regionda fəaliyyət göstərən orta məktəb, lisey və kollec şagirdləri arasında inşa müsabiqəsi təşkil edə bilər.

Kitabxanaçı iştirakçıları, münsiflər heyyətini, müsabiqənin şərtlərini, həmçinin, müsabiqənin keçiriləcəyi yeri və tarixi müəyyən etdikdən dərhal sonra bu barədə saytda, sosial şəbəkələrdə, yerli qəzetdə elan verməlidir.

Kitabxanaçı inşaları topladıqdan sonra obyektiv seçim etmək məqsədilə mütəxəssislərdən ibarət komissiya yaratmalı və konkret gün təyin edərək qalibləri müəyyən etməlidir. Qaliblərin bir neçə nominasiyada hədiyyələr, həvəsləndirici təltiflər, fəxri fərman və diplomlarla mükafatlandırılması tövsiyə olunur. Müsabiqənin münsiflər heyətində Regional Təhsil, Regional Mədəniyyət və Turizm İdarələrinin nümayəndələri və kitabxanaçılar ola bilər. Tədbir öncəsi iştirakla bağlı müvafiq qurumlara rəsmi dəvətnamə göndərilməlidir. Keçirilən tədbirin işıqlandırılması üçün tədbir haqqında press-reliz hazırlanmalıdır.

**Daycest** - Zərifə xanımın həyatı və elmi-pedaqoji fəaliyyəti, onun oftalmologiya elmində xidmətləri ilə bağlı **"daycest"**in hazırlanması kitabxanaçılar və tədqiqatçılar üçün önəmli olardı. Bu məqsədlə kitabxanaçı müəyyən dövr ərzində Zərifə xanım Əliyeva haqqında dövri nəşrlərdə dərc edilmiş məqalələri seçərək müxtəlif mənbələrdə çap olunmuş materialların qısa xülasəsini əks etdirməklə onu geniş ictimaiyyətin diqqətinə çatdırır.



# Əlavələr

## Əlavə 1

## Zərifə Əliyevanın xatirəsinin əbədiləşdirilməsi

**1997** - Xalq rəssamı Ömər Eldarovun akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi "Elegiya" əsərinin – mərmər abidənin və bu abidədən bəhs edən albomun təqdimat mərasimi keçirilmişdir.
- Naxçıvan şəhərində səhiyyə ocağına akademik Zərifə Əliyevanın adı verilmişdir;
- Qəbələ rayonu xəstəxanasına akademik Zərifə Əliyevanın adı verilmişdir.

**1999** - R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Zərifə xanım Əliyeva" kitab-albomunun təqdimatı

**2000** - Bakının Binəqədi rayonu ərazisində Zərifə Əliyeva adına parkın açılış mərasimi olmuşdur.

**2001** - Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna akademik Zərifə Əliyevanın adı verilmişdir.

**2002** - Ukraynanın İrpen rayon mərkəzindəki küçələrdən birinə Zərifə Əliyevanın adı verilmişdir.

**2003** - Milli Elmlər Akademiyasının A.Qarayev adına Fiziologiya İnstitutunun qarşısında Zərifə xanım Əliyevanın barelyefi açılmışdır.

**2004** - Ukraynada akademik Zərifə xanım Əliyevanın abidəsinin açılış mərasimi olmuşdur;
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə şəhərində görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan orta



F. Köçərli adına Respublika Uşaq KİTABXANASI
İNV. № 120944

məktəbin təntənəli açılış mərasimində iştirak etmişdir.

2005 - Estoniya hökumətinin qərarı ilə Tallin şəhərində akademik Zərifə Əliyeva adına Şərq Mədəniyyəti Xalq Universiteti təsis olunmuşdur;

- Yardımlı qəsəbəsində akademik Zərifə Əliyeva adına körpələr evi-uşaq bağçası istifadəyə verilmişdir;

- Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonu Şahtaxtı kənd orta məktəbinə akademik Zərifə Əliyevanın adı verilmişdir.

2006 - Akademik Zərifə Əliyeva adına Ucar rayon Qazıqumlaq kənd xəstəxanasının açılışı olmuşdur;

2007 - Ankarada yeni parka akademik Zərifə Əliyevanın adı verilmişdir;

- Xaçmaz şəhərində akademik Zərifə Əliyeva adına orta məktəbin açılışı olmuşdur;

2008 - Bakının Zərifə Əliyeva küçəsində, ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın vaxtilə yaşadıqları 22 nömrəli binada xatirə lövhələrinin açılışı olmuşdur.

- Estoniyanın paytaxtı Tallin şəhərində akademik Zərifə xanım Əliyevanın büstü açılmışdır;

- Estoniyanın paytaxtı Tallin şəhərində uşaq bağçalarından birinə akademik Zərifə xanım Əliyevanın adı verilmişdir;

- Bakıda görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan gəmi-bərə istifadəyə verilmişdir;

- Bakı şəhəri Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə akademik Zərifə Əliyeva adına liseyin açılışı olmuşdur;



- Saatlı rayonunda görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyeva adına mədəniyyət və istirahət parkı istifadəyə verilmişdir;

- Masallı şəhərində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin regional şöbəsinin açılışı olmuşdur.

2009 - Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutu "Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi" adlandırılmışdır;

- İsmayıllıda akademik Zərifə Əliyeva adına park istifadəyə verilmişdir.

2011 - Ukraynanın İrpen rayon mərkəzində (Kiyev vilayəti) "Zərifə Əliyeva adına dostluq parkı" açılmışdır.

2012 - Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikası istifadəyə verilmişdir.

- Ukraynanın İrpen şəhərində Şəhər Şurasının, Ukraynada Azərbaycanlı Gənclər İttifaqının (UAGİ) təşəbbüsü və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (ARDNŞ) dəstəyi ilə tanınmış oftalmoloq-alim, akademik Zərifə Əliyeva adına Dostluq Parkında Uşaq yaradıcılıq və istirahət klubunun açılışı olmuşdur.

2013 - Estoniyanın paytaxtı Tallində akademik Zərifə Əliyeva adına uşaq bağçasının filialının açılışı olmuşdur.

- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərmarka" şirkəti tərəfindən akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş suvenir poçt bloku dövriyyəyə buraxılmışdır.

- Xətai rayonunda akademik Zərifə Əliyeva adına uşaq bağçası üçün tikilmiş yeni binanın açılışı olmuşdur.

2014 - Ukraynanın paytaxtı Kiyev şəhərində akademik Zərifə Əliyeva adına Elmi-Tibbi Kitabxananın açılışı olmuşdur.

2015 - Ukraynanın İrpen şəhərində xarici dil təmayüllü 12 nömrəli I-III dərəcəli şəhər ümumtəhsil məktəbinə (linqvistika məktəbi) akademik Zərifə Əliyevanın adı verilmişdir.

2016 - Gəncədə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin filialı açılmışdır.

2017 - Ukraynanın Lvov şəhərində 1 saylı şəhər klinik xəstəxanasının poliklinikasında akademik Zərifə Əliyeva adına Oftalmoloji Mərkəzin açılış mərasimi olmuşdur.





## Görkəmli şəxsiyyətlər Zərifə Əliyeva haqqında

...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...

...Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda, qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm.

***

...Mənim üçün o, birinci növbədə, böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir.

***

Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Ana**

***Sözləri: Fikrət Qoca***
***Musiqisi: Sevil Əliyeva***

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü anam,
hara getsəm gözün mənə baxar,
Ana qəlbin layla olar gəzər,
Doğma səsin ömrü-günü bəzər
Qəlbi geniş ana,
həyat verdin mənə,
Günəş kimi yana-yana, ana,
Mənim günəş anam,
Ana, əziz ana,
Ana qəlbi başım üstə səma
Ana səsin aydın səhər olar,
Ana qəlbin keşik çəkər bizə,
Yolum üstə uzaq səfər olar,



İşıq olar nurdan düşən gözə.
Mənim görən gözüm sənsən, ana,
Ömrüm-günüm, sözüm sənsən, ana
Qəlbi geniş ana,
həyat verdin mənə,
Günəş kimi yana-yana, ana,
Mənim günəş anam,
Ana, əziz ana,
Ana qəlbi başım üstə səma.

***

Z.Ə.Əliyeva özünü tibbi tədqiqatların istedadlı təşkilatçısı, sənaye oftalmologiyası sahəsində görmə orqanının peşə patologiyası məsələləri üzrə böyük mütəxəssiz, dərin klinik təfəkkürə və zəngin pedaqoji təcrübəyə malik alim kimi göstərmişdir. O, ölkədə ilk dəfə olaraq sənaye istehsalının müxtəlif sahələrində göz xəstəliklərinin profilaktikasına dair geniş tədqiqatlar aparmışdır.

**S.P.Burenkov,**
*tibb elmləri doktoru*

Fitri istedada malik alim, pak və nəcib insan, alovlu vətənpərvər olan Zərifə xanım dünya təbabətində özünəməxsus yeri olan, hər bir Azərbaycan vətəndaşı üçün mənəviyyat və kamillik nümunəsi ola biləcək nadir şəxsiyyətlərdən biri idi.

**O.K.Şirəliyev,**
*Azərbaycan Respublikasının Səhiyyə naziri,*
*tibb elmləri doktoru, professor*

Zərifə xanımı tanıyanlar onu sevməyə bilmirdilər. Qadın zərifliyi, ipək kimi yumşaq xasiyyət, xeyirxahlıq, ailəsinə, dostlarına böyük məhəbbət və səadət hissləri onun şəxsiyyətində müs-

təsna zəhmətsevərlik, qarşıya qoyulmuş məqsədə çatmaq üçün inadkarlıq, tibb elminə təmənnasız xidmət borcu ilə üzvi surətdə qaynayıb-qovuşmuşdu.

**A.P.Nesterov,**
*Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü,*
*Piroqov adına II Moskva Tibb İnstitutunun*
*Göz xəstəlikləri kafedrasının müdiri,*
*Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı*

Zərifə xanım, hər şeydən əvvəl həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi: o, həkim-oftalmoloq sənətinin vurğunu idi, elmi tədqiqatlara çox vaxt sərf edirdi, o, oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdırmış, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə Əziz qızı həyatda olduğu kimi, elmdə də özünə tapdanmış yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdır.

**V.V.Şmelyeva,**
*Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu*
*Oftalmologiya kafedrasının professoru, akademik*
*Filatov adına mükafatın laureatı*

Onun bir alim, pedaqoq, həkim kimi istedadı öz çoxcəhətliyi və dərinləyi ilə insanı heyrətə gətirirdi. Zərifə xanım canlı zəkası, orijinal mühakimələri və parlaq mətbu çıxışları ilə seçilirdi. O, özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması ilə hamının hörmətini qazanmışdı. Zərifə xanımla ünsiyyət saxlamaq səadətinə nəsib olmuş hər bir şəxs onun bu insani keyfiyyətlərini öz üzərində hiss etmişdir.

***

Zərifə xanımın adı, şöhrəti
Yaddan çıxan deyil, əbədilikdir.
Alim müdrikliyi, həkim şəfqəti
ölçüyə gəlməz.



Səfərə çıxdımı alim dedilər,
Hamı söhbət açdı səadətindən.
Evinə döndümü – bir qadın-ana
Hamıya pay düşdü
Ana əllərinin hərarətindən!
Əl tutdu bir kimsə düşəndə dara,
Yaxşılıq etsə də gətirməz dilə.
O yandı, alışdı bir ulduz kimi,
Sönməyib işığı, yol gəlir hələ.

**N.B.Şulpina**
*Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun*
*kafedra müdiri, professor*

Zərifə Əziz qızı ən qiymətli insani keyfiyyətlərə malik idi. Onlardan ən əsası insanlara xeyirxahlıqla bağlıdır.

**N.A.Puçkovskaya,**
*Ukrayna Oftalmoloqlar Elmi Cəmiyyətinin sədri,*
*Tibb Elmləri Akademiyasının həqiqi üzvü*

Zərifə Əziz qızı təkcə görkəmli alim, istedadlı pedaqoq və tərbiyəçi, fəal ictimai xadim deyildi, həm də kövrək qəlbli insan, qayğıkeş və sevimli qadın, ana, nənə idi, qeyri-adi şəxsiyyət idi. Onun şəxsiyyəti ictimai və fərdiliyin bir vəhdəti idi.

**O.P.Dobromislova,**
*professor*

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir.

**Akif Əlizadə,**
*AMEA-nın prezidenti, akademik*

Ötən əsrin bizim əsrlə qovşağında ixtisasca həkim olan, böyük yazıçı və böyük humanist A.P.Çexov tibb işçisinə xas olan peşəkar xüsusiyyətlərdən danışarkən demişdi: "Hərəkətvericilər də günəş kimidir. Onlar cəmiyyətin ən poetik və həyatsevər ünsürləri kimi bizi ilhamlandırır, rahatlayır və şəfqətləndirir". Mən elə bilirəm ki, bu sözlər insanların həyat yoluna nur saçan, parlaq, həqiqətən də hərəkətverici bir ömür yaşamış Zərifə Əziz qızı Əliyeva haqqında deyilib.

**M.C.Cavadzadə,**
*akademik*

Zərifə xanım işgüzarlığı, xeyirxahlığı, qayğıkeşliyi, nəcibliyi, istiqanlılığı və qeyri-adi nikbinliyi ilə min adamın içində seçilirdi. Çexovun təbirincə desək, bu adamda hər şey gözəl idi – "həm zahiri, həm batini." O, əsl dost idi və yalnız şad günümüzdə deyil, həm da qəmli anlarımızda Zərifə xanım bizim hamımıza öz kömək əlini uzadırdı. O, nadir adamlara məxsus olan natiqlik qabiliyyətinə və söz duyğusuna malik idi.

**N.M.Əfəndiyev,**
*tibb elmləri doktoru*

Biz onu sevir, onunla fəxr edirdik. O, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilən ilk qadın oftalmoloqumuz idi. Zərifə xanım Azərbaycan xalqının, Azərbaycan elminin, Azərbaycan oftalmologiyasının iftixarı idi. Bununla bərabər Zərifə xanım qeyri-adi dərəcədə təvazökar və ciddi insan idi. Bütün ömrü boyu, həyat tərzinə görə də, bütün siması ilə də, məqalə və çıxışlarında da meşşanlığa və mənəviyyatsızlığa, əxlaqi ideallarin itirilməsinə qarşı barışmaz mübarizə aparmışdı. Kristal dərəcədə təmiz, doğruçul və təmənnasız bir insan kimi o, yüksək insani keyfiyyətlərin carçısı idi. Deontologiya, həkim etikası və əxlaqı barədə respublikamızda ilk çıxış edən də o olmuşdu. Oftalmoloqların Daşkənddə keçirilmiş beşinci qurultayında Zərifə Əliyeva Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin sədri seçilmişdi. "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi də o, həmişə müasir oftalmologiyanı inkişafa aparan elmi və ictimai hərəkatın mərkəzində dayanmışdı.



**Z.T.Quliyeva,**
*Əməkdar elm xadimi,*
*tibb elmləri doktoru, professor*

Biz Zərifə xanımın müasir oftalmologiyaya bir alim kimi verdiyi böyük töhfələrlə yanaşı, onun humanist həkim kimi vəsiyyətlərini də yaddan çıxarmamalıyıq.

**Q.Ə.Adıgözəlova-Polçayeva,**
*professor,*

Onun yaradıcılıq qüvvəsi aşıb-daşırdı, yeni fikir və ideyaları həyata keçirmək əzmində idi, əməkdaşlarının elmi, pedaqoji və təcrübi işlərinə, o cümlədən bir neçə dissertasiyaya qayğıkeşliklə, canıyananlıqla rəhbərlik edirdi.

**M.Y.Sultanov,**
*tibb elmləri doktoru, professor*

Onu yüksək vətəndaşlıq və peşəkar prinsipiallıq səciyyələndirirdi. İstər söhbətlərində, istərsə də məqalələrində – həmişə həkim və oftalmoloq düşüncəsinin təmizliyindən danışır, təəssübkeşliklə bu yolu müdafiə edirdi. O dönə-dönə bildirirdi ki, elmi-texniki tərəqqi dövründə həkimlərin mənəvi-əxlaqi keyfiyyətləri nəinki aşağı düşməməli, əksinə, daha da artmalıdır. Hər cür mənəviyyatsızlıq, ruhi eybəcərlik ona yabançı idi, belə hallar Zərifə xanımın gözünün düşməni idi.

**B.İ.Vaynşteyn,**
*tibb elmləri doktoru, tibb xidməti polkovniki*

Yüksək dünyagörüşlü mütəxəssis, dərin tədqiqatçı, maraqlı insan, ağıllı müsahib kimi, incə yumoru və hədsiz ziyalılığı ilə həkk olunub yaddaşıma Zərifə xanım. Onun vicdanı saf və büllur

idi. Əyninə gənc yaşlarından geydiyi ağ xalat ömrünün sonlarına qədər tərtəmiz qaldı, zərrəcə ləkələnmədi. O, xalqı və xəstələri qarşısında borcunu müqəddəs bildiyindən təbabət elminə uzun illər təmənnasız xidmət etdi, elə buna görə də gənc nəslə mənsub oftalmoloqların idealına çevrildi...

**P.S.Məlikaslanova,**
*tibb elmləri doktoru, professor*

Yüksək peşəkarlığı, mədəni tələbatının genişliyi, dostpərvərliyi, ünsiyyətdə səmimiliyi və istiqanlılığı, qayğıkeşliyi, ehtiyacı olanın köməyinə çatmağa can atması Zərifə xanımın həyatını insanlara humanist xidmət nümunəsi kimi, ləyaqətlə tibb elminin ön sıralarına çıxmış bir insan kimi səciyyələndirməyə tam əsas verir. Hədsiz dərəcədə xeyirxah bir insan olan Zərifə xanım yaşamaqdan, işləməkdən ilham alır, həyata və insanlara nikbin yanaşır, xeyirxahlıq və etimad ab-havası yaradırdı. Bu parlaq şəxsiyyət nurlu bir səmimiyyətə, həyatı Xeyirin təntənəsi, ümumxalq səadəti uğrunda mübarizə üçün insana verilmiş bir hədiyyəyə, zəkanın və hissiyyatın qırılmaz vəhdəti kimi qəbul edən böyük istedada malik idi.

**A.Y.Nəcəfov,**
*Əməkdar elm xadimi,*
*fəlsəfə elmləri doktoru, professor*

O, insanlara inam, nikbinlik təlqin edir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir, böyük nəzakət və nəvazişlə onları yanlış yoldan çəkindirir, pis fikirlərdən daşındıra bilirdi. O, ağlagəlməz bir lütfkarlıq və səbirlə həmsöhbətini dinləyərək, söylənənlərin əhəmiyyətsiz tərəflərini nəzakətlə qulaqardına vurar, diqqətini ən əsas və vacib məqamlara cəmləşdirərdi. İşinin həddindən artıq olmasına baxmayaraq, məsələləri ən xırda təfərrüatlara qədər yadda saxlayır, hadisələrin gedişini düzgün hesablamağı bacarırdı.

**A.M.Mirqasımov**
*Azərbaycanın Xalq rəssamı*



Zərifə xanım respublikamızda da, onun hüdudlarından kənarda da kifayət qədər tanınmış bir alim idi. Oftalmologiya sahəsinə gətirdiyi yeniliklər, neçə-neçə elmi məqaləsi, kitabları dünyanın ən tanınmış alimləri tərəfindən yüksək qiymətləndirilirdi. Alimliyi, həkimliyi ilə yanaşı gözəl insan, qayğıkeş ana kimi də sevilirdi.

**S.Nəcəfova**
*Əməkdar jurnalist*

## Ədəbiyyat


**Akademik Zərifə Əliyeva – 90** [Elektron resurs]: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. M.Vəliyeva.- Bakı: [s.n.], 2013.- 1 elektron opt. disk [CD-ROM].

**Əntiqə, G.** Zərifə: şeirlər /Gövhər Əntiqə.- Bakı: Şirvannəşr, 2001.- 76 s.

**Kərimov, K.** Akademik Zərifə Əliyeva və milli oftalmologiyamız /Kərəm Kərimov.- Bakı: [Parni iz Baku Nəşriyyat Evi], 2009.- 104 s.

**Kərimov, K.** Akademik Zərifə Əliyeva və müasir oftalmologiya /Kərəm Kərimov.- Bakı: Parni iz Baku, 2010.- 182, [2] s.

**Mirələmov, H.** Zərifə Əliyeva /Hüseynbala Mirələmov.- Bakı: Azərbaycan, 2013.- 206, [2] s.

**Zərifə Əliyeva:** Ziyarətə çevrilmiş ünvanlar /müəl. və tərt. N.Şamilqızı, N.Şneyder.- Bakı: Elm və təhsil, 2013.- 95, [1] s.

***

**Akademik Zərifə Əliyevanın xatirəsi yad olundu** //Tibb qəzeti.- 2017.- 30 aprel.- S.4.

**Akademik Zərifə Əliyevanın ömür yolu hər bir həkim üçün həyat və mənəviyyat dərsidir** //İki sahil.- 2015.- 29 aprel.- S. 13.

**Allahverdiyev, M.** Nəsillərə nümunə olan ömür yolu: Akademik Zərifə xanım Əliyeva – 93 /Mübariz Allahverdiyev //Xalq qəzeti.- 2016.- 28 aprel.- S.4.

**Allahverdiyev, M.** Dünya şöhrətli oftalmoloq-alim /Mübariz Allahverdiyev //Xalq qəzeti.- 2017.- 15 aprel.- S.3.

**Əliyeva, İ.** Nurlu insan: Elm xadimləri /İradə Əliyeva //Azərbaycan.- 2016.- 15 aprel.- S.7.





**Əliyeva, N.** Zərifə xanım nadir, unikal bir qadın idi /Nurlana Əliyeva //Yeni Azərbaycan, 2015.- 28 aprel. – S. 8.

**Əmiraslanov, Ə.** Nurlu ömrün işığı: Elm xadimləri /Əhliman Əmiraslanov //Azərbaycan.-2017.-15 aprel.- S.7.

**Gəraybəyli, G.** Alim müdrikliyi, həkim şəfqəti: Elm xadimləri /Gəray Gəraybəyli //Azərbaycan.- 2017.- 28 aprel.- S.3.

**Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirəsi anılıb** //Azərbaycan.- 2017.- 16 aprel.- S.4.

**Hüseynova, H.** Akademik Zərifə xanım Əliyevanın nurlu xatirəsi ürəklərdə yaşayır /Hicran Hüseynova //Səs.- 2016.- 28 aprel.- S.4.

**Hüseynova, H.** Novator alim – şəfqətli alim /Hicran Hüseynova //Respublika.- 2016.- 29 aprel.- S.5.

**Hüseynova, P.** Xalq sevgisinin tərənnümü: Bəxtiyar Vahabzadənin "Mərsiyə-Rekviyem" əsərində akademik Zərifə Əliyevaya ümümxalq məhəbbətinin bədii fəlsəfi təcəssümü /Pəri xanım Hüseynova //Kredo.- 2016.- 29 aprel.- S.3-4.

**İnsanlara nur bəxş edən alim** //İki sahil.- 2017.- 26 aprel.- S.15.

**Qasımov, N.** Mənəvi ucalığın zirvəsində /Nazim Qasımov //Xalq qəzeti.- 2017.- 28 aprel.- S.3.

**Qurbanlı, D**. Vətənpərvər, qayğıkeş Ana /Dəmir Qurbanlı //Azad Azərbaycan.- 2016.- 26 aprel.- S. 4.

**Musayeva, M.** Qayğıkeş ana, fədakar həyat yolşadı, cəfakeş qadın /Mirvari Musayeva //Yeni Təfəkkür.- 2017- 26 may.- S.3.

**Nəciblik və mənəvi paklıq timsalı** //İki sahil.- 2016.- 29 aprel.- S.4.

**Zərifə xanım Əliyevanın zəngin həyat yolu bugünkü və gələcək nəsillər üçün örnək və yaşam etalonudur** //İki sahil.- 2017.- 28 aprel.- S.5.


### Rus dilində


**Зарифа ханум Алиева** /Ответственный за выпуск и автор текста. Ф.Абдуллазаде; В книге использованы работы

художников О. Садыхзаде, А. Китаева, Н. Сафронова и фото из семейных архива Алиевых.-Баку: XXI, 1998.-275 с.: ил. фото., 31 см.

**Мираламов, Г.** Зарифа Алиева /Гусейнбала Мираламов.-Москва: Молодая Гвардия, 2010.- 189, [3] с.

## İngilis dilində

**Kerimov, K.** Academician Zarifa Khanum Aliyeva and the modern ophthalmology /Kerem Kerimov; reviewers O.Eldarov, V.Mammadaliyev; editors A. Bairamova, S. Huseynova; Baku: Parni iz Baku, 2010.- 182, [2] p.: photo., portr.

**Miralamov, H.** Zarifa Aliyeva: Life of outstanding people /Huseynbala Miralamov; trans. K. Ahmadgizi.-Baku: Azerbaijan Publishing House, 2013.- 206, p.: portr.; photo.

***

http://www.zarifa-aliyeva.az/

http://anl.az/new/az/pages/60

http://anl.az/el/emb/ZE/index.html



## Mündəricat

Tərtibçidən .................................................................... 4

Akademik Zərifə Əliyevanın həyat
və fəaliyyəti haqqında ........................................................ 5

Zərifə Əliyevanın 95 illik yubileyi ilə əlaqədar
kitabxanalarda keçiriləcək tədbirlər .......................................... 9

**Əlavələr**

**Əlavə 1:** Zərifə Əliyevanın xatirəsinin əbədiləşdirilməsi ......... 17

**Əlavə 2:** Görkəmli şəxsiyyətlər Zərifə Əliyeva haqqında ......... 21

Ədəbiyyat ...................................................................... 30

**Nurlu ömrün salnaməsi**
**Zərifə Əliyeva - 95**

(Metodik vəsait)

**Nəşriyyat redaktoru:** *Mehriban Cəfərova*

**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 57**
**E-mail: contact@anl.az**
**URL: www.anl.az**

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş: № 9
Çapa imzalanmışdır: 12.03.2018
Tirajı: 150
Pulsuz